Ədəbiyyat qəzeti

26 24 oktyabr 2020-ci il



# Babulla - 75

Şair, publisit Babulla 26 oktyabr 1945- ci ildə anadan oub. Azərbaycan Neft və Kimya İnstitutunu (1962-1968), Bakı Ali Partiya Məktəbini (1981-1983) fərqlənmə diplomu ilə bitirərək mühəndis və politoloq ixtisaslarına yiyələnib. Əmək fəaliyyətinə 1962-1963-cü illərdə Səttarxan adına zavodda başlayıb. 1972-ci ildə Moskva Ümumittifaq Elmi Tədqiqat İnformasiya İnstitutunda, 1978-ci ildə Kiyev 10-cu Siyasi Kadrların Təkmilləşdirmə kursunda təcrübə keçib. 1968-cil ildən Əli Bayramlı (indiki Şirvan) şəhərindəki "Şirvanneft" Neft və Qazçıxarma idarəsində işləməyə başlayıb. İşlədiyi dövrdə neftçıxarmada istifadə edilən onlarla layihəsi istehsalatda tətbiq olunub.

1973-cü ildən başlayaraq Əli Bayramlı Neft texnikumunun direktoru, Əli Bayramlı şəhər Xalq Deputatları Soveti İcraiyyə Komitəsi sədrinin birinci müavini, sədri, İcra Hakimiyyət başçısının elm, təhsil, səhiyyə və idman məsələləri üzrə müavini və başqa rəhbər vəzifələrə irəli çəkilib. 20 ildən çox şəhər Sovetinin deputatı olub, şəhərin quruculuğunda fəal iştirak edib, milli memarlıq ənənələrinin inkişafına və təbliğinə, ekologiyanın, zona landşaftının qorunmasına, sosial problemlərin həllinə xüsusi qayğı göstərib.

Onun layihəsi, memarlığı ilə Şirvan şəhərində 1980-ci ildə N.Nərimanovun 110 illiyi şərəfinə park salınıb, böyük mütəfəkkirin büstü qoyulub, 1987-ci ildə isə Səməd Vurğun adına park salınıb, dahi şairin abidəsi ucaldılıb.

Onun layihəsi əsasında "Dədə Qorqud dastanı"nın 1300 illiyi ilə bağlı "Dədə Qorqud meydanı" salınmış, meydanın mərkəzində "Dədəm Qorqud abidəsi Azərbaycanaməxsusluğun möhtəşəm, əbədi rəmzidir" memarlıq kompleksi tikilib.

Babulla ötən əsrin 70-ci illərindən başlayaraq ölkənin dövrü mətbuatında şeir, poema, esse və elmi-publisistlik yazıları ilə çıxış edir. "20 Yanvar" şəhidlərinə həsr edilmiş "Xiyabandan gələn səslər" kitabı "Gənclik" nəşriyyatı tərəfindən 1991-ci ildə, Ulu Öndər Heydər Əliyevə həsr olunan elmi, tarixi, fəlsəfi və memarlıq əsəri "Yaddaşın abidəsi" kitabı "Elm" nəşriyyatı tərəfindən 2000-ci ildə çap edilmişdir. Kitabda "Azərbaycan dünya bina olan gündən" və "Ermənilərin Azərbaycanlılara qarşı soy qırımları" abidələr kompleksinin layihəsi verilmişdir.

"Sonam" xatirat-roman kitabı 2013-cü ildə "Mütərcim" nəşriyyatı tərəfindən nəşr edilmişdir. Eyni zamanda Qarabağ problemi ilə bağlı ötən əsrin 80-ci illərindən başlayaraq 250-dən çox elmi araşdırmanın, publisistik yazıların müəllifi olan Babullanın yaradıcılığı geniş oxucu kütləsi və ədəbi tənqid tərəfindən rəğbətlə qarşılanmış, başqa dillərə tərcümə edilmişdir. Şeirlərinə mahnılar bəstələnmiş,radiokompozisiyalar hazırlanmışdır. Azərbaycan Yazıçılar Birliyinin üzvü olan Babulla bir çox dövlət təltiflərinə layiq görülümüş, Prezident təqaüdü almış, "Yaddaş" Milli mükafatı və Beynəlxalq Mahmud Kaşqari mükafatı ilə təltif edilmişdir.

Azərbaycan Yazıçılar Birliyi və "Ədəbiyyat qəzeti" olaraq şair Babullanı 75 illik yubileyi münasibətilə ürəkdən təbrik edir, yubilyara möhkəm cansağlığı, tükənməz yaradıcılıq enerjisi arzulayırıq.